**Nərgiz Cavid qızı BABAYEVA**
*Qərbi Kaspi Universiteti, magistr*
E-mail: nargiz.javid.b@gmail.com

# CİNAYƏTKAR ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SOSİAL MÜHİTİN ROLU

**Xülasə:** Məqalədə cinayətkarın şəxsiyyətinin kriminoloji konsepsiyasının mahiyyəti, onun strukturu müəyyən edilərkən ortaya çıxan nəzəri problemlərdən bəhs dilir. Cinayət törətmiş şəxsin şəxsiyyətinin formalaşmasına təsir göstərən xarici amillər ayrılır və təhlil edilir: ailədəki neqativ hallar, məktəb təhsilindəki boşluqlar, sosial nəzarətin olmaması, ünsiyyət və asudə vaxt sahəsində çatışmazlıqlar.

**Açar sözlər:** şəxs, şəxsiyyət, cinayətkar, cinayətkar şəxsiyyətin xüsusiyyətləri, sosial mühit, ictimailəşmə.

**UOT:** 74.01/.09

**DOI:** doi.org/10.54414/ecad7790

## Giriş

*Mövzunun aktuallığı.* Dövrümüzün ən kəskin problemlərindən biri cinayətkarlığın davamlı artmasıdır. Keyfiyyətli əks-tədbirlər hazırlamaq üçün cinayətin səbəb-nəticə kompleksi kimi mürəkkəb və çoxfaktorlu hissəyə xüsusi diqqət yetirməklə, cinayəti sosial hadisə kimi hər tərəfdən öyrənmək lazımdır. Cinayət davranışının ən mühüm determinantlarından biri də ailə mühitidir. Ailə həmişə nəsillərin davamlılığını təmin etmək, uşaqların sosiallaşmasına kömək etmək və onları cəmiyyətə tanıtmaq üçün yaradılmış əsas sosial institutlardan biri olmuşdur. Fərddə antisosial meyllərin formalaşmasına məhz ailənin psixoloji mikroiqlimi böyük təsir göstərir. Tədqiqatların göstərdiyi kimi, əlverişsiz ailə mühiti bir şəxs tərəfindən cinayət əməllərinin törədilməsinin əsas səbəblərindən biridir, xüsusən də yetkinlik yaşına çatmayanların cinayət işlərində [7].

Cinayətkarın şəxsiyyəti həmişə kriminal psixologiyanın əsas problemlərindən biri olmuşdur və cinayətin səbəbləri ilə mübarizədə şəxsiyyətin hansı baxışa riayət edilməsindən asılıdır. Əgər cinayətkar davranışının səbəbləri və ya cinayət törətməyə meyllilik bioloji xətlə yəni (genetik) olaraq miras qalırsa, onda görülən əks tədbirlər insanı cinayət niyyəti və meylləri ilə doğulmamış, lakin onları qeyri-funksional pozğunluq nəticəsində əldə edən şəxs hesab etdiyimizdən tamamilə fərqli xarakter daşımalıdır.

## Əsas mətn

Elm bu günə kimi, özünü araşdırmalarda təsdiq etmişdir ki, insan doğulduğu andan tam hüquqlu, formalaşmış şəxsiyyət olmur. O, ictimai həyatı prosesində inkişaf edir və şəxsiyyətin formalaşması cəmiyyətdən kənarda mümkün olmur. Əxlaqi formalaşma prosesində insan müxtəlif əxlaqi baxış və dəyərlərin, fərdi psixoloji xüsusiyyətlərin bütöv bir toplusunu əldə edir. Eyni proses cinayətkarın mənfi mənəvi təsir sferasında formalaşan şəxsiyyətinə də aiddir. V.E.Eminovun qeyd etdiyi kimi məhz cinayətkarın şəxsiyyəti və onun formalaşması cinayət davranışında əsas həlqə-yəni cinayətin səbəblərinin daşıyıcısıdır [21].

Cinayətkarın şəxsiyyəti müəyyən spesifik xüsusiyyətlərə malik olan mücərrəd sosial-psixoloji model, cinayət törədən şəxslər haqqında elmi fikirlər və biliklər toplusudur. Hər hansı bir insanın şəxsiyyətinin formalaşması onun müəyyən baxış və fikirlərin, ətraf aləmə və özünə münasibətin mənimsənilməsi və sonradan möhkəmlənməsi prosesidir. Başqa sözlə şəxsiyyətin formalaşması-şəxsiyyətin fərdi görünüşü, üstünlükləri, istiqamətləri və davranış motivlərinin formalaşdığı sosiallaşma prosesidir [2]. E.B.Kurquzkinanın qeyd etdiyi kimi-insan bir şəxs kimi müxtəlif sosial qruplarda səmərəli iştirak etməyi öyrənir və bu isə sosiallaşma prosesidir.

Sosiologiyada "sosiallaşma" termini üç mərhələnin təyin edilməsi ilə ortaya çıxır.

1. Cəmiyyətdə qəbul edilən sosial normalar, davranış normaları haqqında biliklər.

2. Bu normaların mənimsənilməsi, onlarla razılaşdırılması, zəruri hesab edilməsi və şüura daxil edilməsi.

3. Bu normalara riayət edilməsinə, əxlaq və qanuna uyğun hərəkətə dair quraşdırma. Sosiallaşma dərəcəsi insanın cəmiyyətdə davranış adətlərinə nə dərəcədə əməl etməsinə və düşdüyü sosial mühitlə nə dərəcədə ahəngdar yaşamasına görə müəyyən edilə bilər [10].

Şəxsiyyətin özü o zaman formalaşmış hesab edilməlidir ki, fərd konkret situasiyalarda ondan gözlənilən davranış normaları əsasında öz hərəkətlərinə nəzarət edə bilsin və qəbul edilmiş qərarlara görə məsuliyyəti öz üzərinə götürə bilsin. Sosiallaşma mütləq deformasiyaya uğramamış şəxsiyyətin formalaşmasını nəzərdə tutmur, cinayətkar da sosiallaşa bilər. Antisosial xarakterli normaların mənimsənilməsi və cəmiyyətə tanış olan sosial normaların cinayət dünyasının norma və standartlarının xeyrinə rədd edilməsi, cinayət və antisosial hərəkətləri cinayətkar kimi qəbul edən şəxsiyyət dəyərlər sisteminin formalaşmasına gətirib çıxarır bu isə sosial mühitin normalarına ziddir [24]. Əgər fərd böyüyüb, tərbiə edilib və sonradan kriminal mühitə daxil olubsa, o zaman şəxs həmin mühitin davranış normalarını öyrənir, onlara əməl edir və nəticədə kriminal mühitdə ictimailəşir. Məsələn-əgər uşaq valideynlərinin, onları əvəz edən şəxslərin və ya digər yaxın qohumlarının spirtli içkilərə aludə olduğu, oğurluğa və ya digər kriminal həyat tərzinə meylli olduğu ailədə böyüyürsə, nəticə etibarı ilə uşaq buna uyğun sosiallaşır. Bundan əlavə, cinayət ideologiyası əvvəllər məhkum olunmuş valideynlərin və ya onları əvəz edən şəxslərin olduğu ailələrdə təbliğ olunur. Beləliklə, insan tək adi cəmiyyətin deyil həmdə yeraltı dünyasının subkulturasını qavradıqda, mənimsədikdə sosiallaşma da mənfi və təhrif olunmuş ola bilər [3].

Beləliklə, şəxsiyyətin formalaşması insan tərəfindən sosial rolların və davranış qaydalarının mənimsənilməsi dəyərlər sisteminin və dünyagörüşünün inkişafı prosesidir. Bu proses insan həyatının ən erkən mərhələlərindən demək olar ki, doğuşdan başlayır. Şəxsin xarici təsirlərə məruz qaldığı ən həssas dövr-uşaqlıq və yeniyetməlik dövrüdür [12].

Kənar şəxslərin uşağa göstərdiyi münasibətindən asılı olaraq o, özünü ya qorunmuş hiss edir, ya da yox. Beləliklə, uşaqda narahatlıq və qorunma ehtiyacı artır və bəzən o qədər güclü olur ki, bunun üçün o bütün gücünü səfərbər etməli olur.

Burada qeyd etmək lazımdır ki, cinayətkarın narahatlığı təbiətcə hipertrofiyaya malikdir, çünki narahatlıq sadəcə

insanlara xas olan normal bir şəxsiyyət xüsusiyyətidir. Cinayətkarın hipertrofiyaya uğramış narahatlığı onun şüursuz səviyyədə yaşadığı, valideynlərdən və başqa mikromühitdən, cəmiyyətdən uzaqlaşma hissi ilə formalaşır. Özgələşmə hissi ondan irəli gəlir ki, fərd hələ erkən yaşda ətrafda baş verən prosesləri şüurlu şəkildə izah edə və özünü onlardan qoruya bilmir [14].

İlkin mərhələdə xarici dünyaya uyğunlaşma birbaşa deyil, dolayı yolla böyüklər vasitəsilə baş verməlidir. Belə bir uyğunlaşma çətin olarsa, ətraf mühitə qarşı narahatlıq, aqressiya müşahidə edilir. Bu narahatlıq və qorunma ehtiyacı şüuraltının bir hissəsinə çevrilərək və şəxsiyyət xüsusiyyətləri kimi sabitləşərək sonradan antisosial davranış üçün dərin və gizli motivlər kimi çıxış edə bilər. Əgər şəxsiyyətin sonrakı əxlaqi tərbiyəsi yetərincə deyilsə və ya düzgün deyilsə, o zaman narahatlıq və qorunma ehtiyacı fərdin törətdiyi cinayət şəklində özünü göstərə bilər.

Narahatlıq hissi, cinayətkar tərəfindən ətraf mühitin ona qarşı təhlükə mənbəyi olaraq qavranılmasına səbəb olur. Cinayətkar dünyanı rəzil, dağıdıcı və təhlükəli görür insanların isə etibara, hörmətə və sevgiyə layiq olmadıqlarını deyir. Cinayətkar müxtəlif vasitələr ilə, o cümlədən cinayət yolu ilə özünü onlardan müdafiə etmək ehtiyacı hiss edir. Cinayət işində günahkarlıq hissi cinayətkarlarda nadir hallarda yaranır [16].

Buradan aqressiya hissi yaranır və onun kökləri uşaqlıqdan-yəni uşağın sevgi və qayğıya ehtiyacı olduğu, lakin nə valideynlər, nə də başqa insanlar tərəfindən ödənilməməsi zamanı yaranır. Beləliklə, hər bir cinayətkar şəxsiyyətdə narahatlıq hisinin səviyyəsi fərdin fərdi fizioloji xüsusiyyətlərindən və uşaqlıqda valideynlər tərəfindən rədd edilmə dərəcəsindən asılı olaraq dəyişir. E.B Kurquzkinanın qeyd etdiyi kimi, cinayət törətmiş şəxsin şəxsiyyəti həm də real olmayan təhlükədən-oğurluq və adam oğurluğundan zorakı hərəkətlər kimi (quldurluq, soyğunçuluq, ən ağır hallarda-zorlama və adam öldürmə) mühafizə üsullarının xarakterinə görə dəyişir [10].

Kriminologiyada cinayətkarın şəxsiyyəti mərkəzi tədqiqat obyektlərindən biridir, çünki cinayət əməllərinin səbəbi məhz onun kriminoloji xüsusiyyətləridir. Nəticə etibarı ilə, kriminologiyada cinayətkarın şəxsiyyətinin tədqiqi, onun cinayət davranışına səbəb olan xüsusiyyətlərini və əlamətlərini müəyyən etməyə, qiymətləndirməyə yönəldilmişdir və onların qarşısının alınması üçün tədbirlər görülməlidir. Bu təbii ki, cinayət törədən şəxsə təsir edən, onun şəxsiyyətini formalaşdıran və cinayətin törədilməsinə şərait yarada bilən xarici sosial amillərin əhəmiyyətini azaltmır.

Beləliklə, cinayətkarın şəxsiyyəti-mənəvi dəyərlərə mənfi münasibəti və antisosial baxışları ilə yanaşı, özünəməxsus psixoloji xüsusiyyətlərinə görə də cinayətkar şəxsiyyət kimi müəyyən edilə bilər [8].

Cinayətkarın şəxsiyyəti-cinayətin səbəblərinin daşıyıcısıdır. Cinayətkarın şəxsiyyətinin formalaşması mürəkkəb sosiallaşma prosesidir, bu müddət ərzində insan bir sıra antisosial baxış və ideyaları mənimsəyir. Nəticə etibarı ilə, cinayətkarın sosiallaşması mənfi xarakter daşıyır. Əksər hallarda mənfi sosiallaşma kriminal mühitin hökm sürdüyü ailələrdə-məsələn, məhkum edilmiş valideynləri və ya alkoqol asılılığı olan valideynləri olan ailələrdə baş verir.

Cinayətkarın əsas şəxsiyyət xüsusiyyətlərindən biri də uşaqlıq və yeniyetməlik dövründə təhlükəsizlik hissinin olmamasından yaranan və şüuraltında özünə yer taparaq insanı antisosial hərəkətlərə və cinayətlərə sövq edə bilən hipertrofiyaya uğramış narahatlıqdır. İbtidai sosiallaşma cinayətkarın formalaşmasında xüsusi və mühüm rol oynayır, çünki bu dövrdə uşaq böyüklərin, əksər hallarda valideynlərin və ya onları əvəz edən şəxslərin davranışlarına diqqət yetirərək davranışları, tipik reaksiyaları şüursuz şəkildə mənimsəyir [15].

Ailə-insanın cəmiyyətdə sosiallaşması üçün əsas ötürücü kimi çıxış edən xüsusi bioloji, psixoloji, sosial və iqtisadi sistemdir. Ailə dəyər yönümləri sistemində sosial olaraq təsdiqlənmiş davranış münasibətlərini qoyur. Gücləndirilmiş vərdişə uyğun olaraq, fərd avtomatik olaraq sosial olaraq təsdiqlənməmiş davranışdan çəkinir-və bu E.B.Kurquzkinanın danışdığı "qaçınma reaksiyasıdır". İnsanın bütün həyatı boyu, müxtəlif sosial qruplar qaçınma reaksiyasının formalaşmasına təsir göstərir, bununla belə valideynlərin bu və ya digər davranışı bəyənmə və ya rədd etmə reaksiyası vasitəsilə ilkin təməli məhz ailə qoyur. Ailənin hər bir üzvü təbii olaraq uşağın həyati ehtiyaclarının ödənilməsində müəyyən rol oynayır [10].

Həyatın ilk dövrlərində uşağa qayğı göstərən və ona ilk sıx emosional stimulları verən ana ən əhəmiyyətli təsirə malikdir. Hakimiyyət, inam və etibarlılıq rəmzi olan müəyyən davranış tipini təmin edən şəxsiyyət kimi atanın əhəmiyyəti sonralar həm də ilk illərdə dərk edilir. Ailədə rolların bölüşdürülməsi uşağın formalaşmasına əhəmiyyətli təsir göstərir, çünki uşaq görməyə alışdığı valideynlərin davranış münasibətlərini öyrənir [18].

Uşaqlıqdan başlayaraq oğlanlar ən çox özlərini ataları ilə eyniləşdirirlər, yəni "ilk növbədə kişiləri", qızlar isə analarını daha çox təqlid edir (qadın keyfiyyətlərini dərk edirlər). Lakin, demək olmaz ki oğlanın tərbiyəsində atanın, qızın tərbiyəsində isə ananın rolu böyükdür. Ailə həyatında ata və ana bir-birini tamamlayır. Tərbiyə prosesinə atanın sərtlik, möhkəmlik, prinsiplərə sadiqlik, mütəşəkkillik, ananın isə mehribanlıq, diqqət, qayğı və şəfqət gətirdiyinə inanılır. Buna görə də natamam ailələrdə tərbiyə prosesinin bir sıra xüsusiyyətlərə malik olduğuna inanılır. Valideynlərdən birinin itkisi mənəvi və emosional münasibətlər dünyasının əhəmiyyətli bir hissəsinin itirilməsi ilə müşahidə edilir [26].

Valideynlərdən biri uşağa iki fərqli davranış modelini (kişi və ya qadın) aşılandıra bilmir, beləliklə A.V.Borbat və A.N.İlyaşenko qeyd edirlər ki, natamam ailənin təhsil potensialı pedaqoji və mənəvi-psixoloji cəhətdən məhduddur [2].

Həmçinin, natamam ailədə qalan valideyn bütün maddi və məişət problemlərinin həllini öz üzərinə götürməli olur, nəticədə isə uşağın təlim və tərbiyəsinə kifayət qədər vaxt qalmır. Natamam olan ailələrin maddi vəziyyəti çox vaxt tam ailələrdən daha aşağı səviyyədə olur ki, bu da yeniyetmədə paxıllıq, xəsislik, hiyləgərlik yarada və muzdlu xarakterli cinayətin törədilməsinə səbəb ola bilər [25].

Natamam ailələrin yaranmasının əsas səbəblərindən biri boşanmalardır. Boşanma təkcə nikah birliyinin rəsmi və qanuni şəkildə dayandırılması deyil, həm də əksər hallarda ailənin dağılmasıdır. Uşaqların hələ məktəbəqədər və ya məktəb yaşında olan, emosional dünyasının kifayət qədər

kövrək və qeyri-sabit olduğu ailələrdə valideynlərin boşanması uşağın psixikasında bir növ ruhi sarsıntı, silinməz iz qoyur.

Uşaqla birlikdə qalan valideyn yeni münasibətləri inkişaf etdirməyə, yeni insanlarla birgə yaşamağa və ya yenidən ailə qurmağa çalışar. Bu vəziyyətdə uşaqlar üçün valideynlərinin yeni tərəfdaşları ilə emosional əlaqə qurmaq çox çətin ola bilər, çünki ailəsinin dağılmasından sonra yaranan psixoloji travma hələ də psixikaya təsir göstərir. Nəticədə ata və ya ana sevgisini itirmək qorxusundan uşaqda qısqanclıq hissi yaranır, valideynlə emosional yaxınlığın itirilmə təhlükəsi yaranır [20].

Antisosial və marjinal davranışın bariz nümunəsi olan (məsələn-atanın alkoqoldan əziyyət çəkən və ya zorakılığa meyilli olduğu) ailədə normal həyatın bərpası naminə boşanmadan qat-qat güclü kriminogen təhlükə daşıyır [24].

Özgələşmə və ailədə güclü isti emosional əlaqənin olmaması uşaqların nəzarətsizliyinə və baxımsızlığına səbəb olur. Baxımsızlığın nəticəsi çox vaxt yeniyetmələrin küçə həyatı sürməsi, dələduzluğu olur. Beləliklə, onlar valideynləri ilə emosional əlaqənin olmaması, ailədəki münaqişələr ilə bağlı yaranan həyat çətinliklərini həll etməyə çalışırlar. Eyni zamanda, valideynlərlə ünsiyyət nə qədər az olarsa, yeniyetmələrin evi tərk etməsi bir o qədər asan olur [17].

Evdən çıxmaq çox vaxt yeniyetmələri erkən alkoqol və narkotik vasitələrdən istifadə etməyə, inzibati xətalar törətməyə və erkən cinsi əlaqəyə sövq edir. Məhz ailə və ailə tərbiyəsi səbəb-nəticə zəncirinin əsas halqalarından biri hesab olunur və nəticədə ailədə konflikt cinayət davranışına gətirib çıxarır. Erkən yaşda uşaqlar valideynlərini təqlid etməyə və ailə ənənələrinə əməl etməyə çalışırlar.

Qeyd etmək lazımdır ki, şəxsin özünün və yaşadığı mühitin həyat tərzi qeyri-etik olduqda belə şəraitdə formalaşan şəxsiyyətdə antisosial münasibət, cinayətə meyl üstünlük təşkil edir. Başa düşmək lazımdır ki, uşağın şəxsiyyətinə təsirin mənfi məna kəsb etməməsi üçün valideynlər uşaqlara cinayətkar həyat tərzini birbaşa öyrətməli deyillər. Valideynlərin uşaqlara münasibətdə davranışı, onların ümumi qeyri-etik davranışları ilə müqayisədə üstünlük təşkil edən rol oynayır. Beləliklə, məsələn-V.V.Krımkinə görə, uşaqlara hörmətli və isti münasibət göstərən ailələrdə xoş niyyət, diqqətlilik, münaqişə vəziyyətlərini həll etmək bacarığı, empatiya qabiliyyəti və s. kimi müsbət xarakter keyfiyyətləri daha fəal formalaşır. Və əksinə, uşaq nə qədər az qayğı, məhəbbət görərsə bir o qədər şəxsiyyət ləngimiş formada inkişaf edər [9].

Hipohimayə, yəni valideynlərin uşağa qarşı diqqətinin olmaması və onlarla ünsiyyətin az olmasıdır. Uşaq ləngimiş formada şəxsiyyət kimi formalaşır, onda başqa insanlara qarşı empatiya və mərhəmət hissləri yaranmır. Bütün bunlara emosional soyuqluq deyilir. Empatiya bacarığının olmaması bir çox zorakılıq və muzdlu-zorakılıq cinayətlərinin genezisini izah edir-yəni cinayətkar özünü qurbanla eyniləşdirə bilmir, özünü onun yerinə qoya bilmir. Bundan əlavə, isti emosional münasibətlər olmadıqda, çox vaxt məqsədyönlü mənəvi tərbiyə olmur, yəni valideynlər uşağa həyatının ilk illərindən başqaları qarşısında ən sadə vəzifələri yerinə yetirməyi və əxlaq normalarına riayət etməyi öyrətmirlər [25].

Belə ailələr başqaları ilə şəxsiyyətlərarası münasibətlərdə qeyri-etiklik, zorakılıq

halları müşahidə edilir. Bununla belə, valideyn davranışının təkrarlanması bir çox hallarda-uşaq və ya yeniyetmənin valideynləri, digər yaşlı qohumları, ailə üzvləri ilə emosional təmasda olduğu hallarda olur. Belə bir emosional əlaqə yoxdursa, valideynlərin davranışını təkrarlama ehtimalı azalır. Beləliklə, sosiallaşmanın erkən dövründə valideyn davranış nümunəsi, uşaq üçün özünə və başqalarına qarşı adi davranış və münasibət normasına çevrilir. Məhz buna görə də, ailə problemi yetkinlik yaşına çatmayanların cinayətkar davranışının dinamikasını şərtləndirən əsas səbəblərdən birinə çevrilir [11].

Bu vəziyyətdə müəyyənedici element gündəlik həyatın ayrı-ayrı elementləri deyil, bütün üzvlərinin qarşılıqlı təsirindən yaranan bütövlükdə ailə mühitidir. Mənəvi dəyərlərin formalaşmasına təsir edən ailə və ailədəki ab-hava bir növ "ekrandır" ki, onun vasitəsilə ətraf cəmiyyətdəki varlığın xüsusiyyətlərinin öyrənilməsi baş verir. Məhz ailədə insanı cinayət aləminə sövq edən və ya əksinə, özünəməxsus "mənəvi məhdudiyyətlər" qoyulur. Eyni zamanda, yeniyetmələrdə antisosial davranışa meylliliyin formalaşmasına təsir edən amillər müxtəlifdir [13].

Tədqiqat zamanı Drozdov yetkinlik yaşına çatmayanların asosial davranışının səbəblərinin təsnifatını yaratdı. Bu təsnifat yeniyetmələrin xarakterlərində mənfi dəyişikliklərə səbəb olan ailədə tərbiyənin beş növünü ayırır [5].

1. Uşağın-valideynləri, qəyyumları və ya qohumları tərəfindən mənfi emosional təsirə məruz qaldığı ailələr.

Eyni zamanda uşağa təsir forması həm passiv (müntəzəm davalar, hüquq pozuntuları, sərxoşluq) həm də aktivlik formasında keçə bilər (uşağın antisosial hərəkətlərdə və ya təhriklərdə birbaşa iştirak etməsi). Ailədə valideynlik hisslərinin olmadığı bir vəziyyət. Yəni valideynlərin uşağı bir növ yük kimi görmələri və ondan imtina etmələri. İmtina açıq və ya gizli şəkildə ola bilər. Açıq-aşkar imtina-bir qayda olaraq, içki içən və ya narkotik istifadə edən, qeyri-etik və ya antisosial həyat tərzi keçirən valideynləri olan marjinal ailələrdə mövcuddur. Belə ailələrdə valideynlər çox vaxt uşağa ehtiyac duymur və onlara qarşı qəddarlıqla rəftar oluna, döyülə, dilənçilik və ya oğurluq yolu ilə öz işlərini görməyə məcbur edilə bilərlər [4].

Belə bir uşaq sonradan mikromühitlə normal münasibətlər qura bilməyəcək və ondan özünə həmişə təhlükə gözləyəcək. Valideynlər və uşaqlar arasındakı əlaqənin neytral olduğu-gizli formanı aşkar etmək daha çətindir. Belə ailələrdə münasibətlərin heç bir emosional rəngi yoxdur, hər bir ailə üzvü başqasının həyatı ilə maraqlanmadan yalnız öz yolu ilə yaşayır. Bu cür əlaqələr çox vaxt həm valideynlər, həm də uşaqlar tərəfindən gizlədilir və çox vaxt istəmsizcəsinə olur. Belə ailələr adətən zahirən tamamilə firavan, yaxşı maddi rifahla yaşayırlar. Adətən belə uşaqlar daha çox ailənin ənənəvi baxışının nəticəsidir hansı ki, hər bir ailədə olması lazım olan bir xüsusiyyətdir [6].

Əsasən, valideynlər uşağın necə böyüyəcəyinə biganəlik nümayiş etdirirlər. Uşağın gündəlik iş rejiminə, onun fəaliyyətinə və maraqlarına, ətrafına və dostlarına düzgün valideyn nəzarətinin olmaması. Uşaq belə hallarda öz öhdəliyinə buraxılır. Üstəlik nəzarətsizlik, baxımsızlıq həm natamam ailələrdə, həm də tam ailələrdə baş verir və bundan əlavə çoxuşaqlı ailələr üçün də xarakterikdir.

A.V.Borbat və A.N.İlyaşenko baxımsızlığı yetkinlik yaşına çatmayanların davranışlarına müşahidənin olmaması və ya zəifləməsi, valideynlərin və ya onları əvəz edən şəxslərin tərbiyəvi təsirinin olmaması və ya yetərincə olmaması kimi müəyyən edirlər [2].

Nəzarətsizlik valideynlər tərəfindən lazımi qayğı və isti hisslərin olmaması ilə də özünü göstərə bilər. Bu cür nəzarətsizlik, xüsusən də çoxuşaqlı ailələrdə obyektiv səbəblərdən də yarana bilər məsələn-ailənin böyüməsi ilə bağlı artan qayğı ilə əlaqədar, lakin bu uşaqların özləri tərəfindən həmişə kəskin şəkildə hiss olunur. Nəticədə, fərdlə cəmiyyət arasında məsafə yaranır. Orlova və Quseva qeyd edirlər ki, baxımsızlıq və düzgün ailə əlaqələrinin olmaması qızlar üçün xüsusilə zərərlidir.

Gənc yaşda imtina edilən qızların demək olar ki, hamısı cinsi həyatına erkən başlayır, tez ruhdan düşür və intim münasibətləri qeyri-etikləşir. Belə qızların yenidən başqalarının hörmətini qazanması, normal həyata qayıtması son dərəcə çətindir. Stiqmatizasiya deyilən, yəni sosial damğalanma adətən kişilərə nisbətən qadınlara münasibətdə daha davamlı və dağıdıcı olur [19].

2. Bu, müəyyən mənada üçüncü növün əksidir. Belə vəziyyətlərdə uşaq valideynləri, qəyyumları və qohumları tərəfindən hiperhimayə olunurlar. Çox vaxt eqoistdir və ailənin yeganə övladı olurlar.

Bu tip ailələrdə valideynlər övladlarının sakit uşaqlığını mümkün qədər uzun müddət uzatmağa, onları ev işlərindən tamamilə uzaqlaşdırmağa, yük olub-olmamasından asılı olmayaraq bütün şıltaqlıqlara göz yumurlar. Bu münasibət ən çox bir uşaqlı ailələrdə olur. Nəticədə uşaqlar eqoist böyüyür, həyata istehlakçı münasibət, işə isə laqeyd münasibət formalaşır. Sonradan onların müraciətləri çox vaxt maddi imkanlara uyğun gəlmir ki, bu da cinayətlərin xüsusən də muzdlu xarakterli cinayətlərin törədilməsinin əsasını təşkil edir [1].

3. Valideynlərin, qəyyumların subyektiv olaraq uşağa sosial müsbət davranış normalarını aşılamaq istəyərkən, obyektiv olaraq əksinə nail olduqları vəziyyətlər ilə xarakterizə olunur.

Belə nəticələrin səbəblərindən biri də avtoritar və despotik təsir üsullarına hədsiz sadiqlikdir. Avtoritar tərbiyə tərzi münaqişələrə meyilli şəxsiyyətin formalaşmasına səbəb ola bilər. Uşağın iradəsini tabe etməyə çalışan valideynlər, əksər hallarda hiyləgərlik və ikiüzlülüklə həmsərhəd olan xarici təvazökarlıq ifadələrini formalaşdırırlar. Belə uşaqlarda zəif özünü idarə etmə, narahatlıq, şübhə və küsmə ilə yanaşı cəza qorxusu hissi inkişaf edir. Bu tip həm də uşağın müxtəlif valideynlik üsullarının diqqət mərkəzində olduğu vəziyyətləri əhatə edir. Bir çox valideynlərin sadəcə olaraq pedaqoji təhsili aşağı səviyyədə olur [23].

Sadalanan növlərin və mənfi amillərin müxtəlif birləşmələrində birləşmə halları heç də nadir bir hadisə deyil. Və əksər hallarda hər hansı bir amilin hələ də əsas olmasına baxmayaraq, qalanları onun törəmələri olsa da, yenə də birlikdə nəzərdən keçirilməlidir. Deməli, şəxsiyyəti formalaşdıran sosiallaşma prosesi ən çox uşaqlıqda baş verir. İbtidai sosiallaşma məktəbəqədər yaşda başlayır həmçinin valideynlərə əsaslanan əxlaq normaları və davranış qaydalarının uşaq tərəfindən şüursuz şəkildə mənimsənilməsi prosesidir. Ailə-fərdi tərbiyə etmək, cəmiyyətə tanıtmaq, eyni zamanda sosial cəhətdən təsdiqlənmiş davranış münasibətlərini aşılamaq vəzifəsini daşıyır.

Ailə daxilində valideynlərin hər biri müəyyən rol oynayır, buna görə də ailənin dağılması və ya rolların dəyişməsi uşaq tərəfindən ağrılı şəkildə qəbul edilir və onun tərbiyə prosesinə obyektiv təsir göstərə bilər [22].

Yetkinlik yaşına çatmayanların cinayət fəaliyyətində ailədaxili rifahla bağlı bir sıra amillər, məsələn-ailənin tamlığı və ondakı mənəvi-psixoloji iqlim, valideynlərin (və ya onları əvəz edən şəxslərin) münasibətinin xarakteri təsir göstərir. Uşağa, habelə yetkinlik yaşına çatmayanların normal inkişafı üçün kifayət qədər şəraitin və uşaqların asudə vaxtının və əyləncəsinin valideynlərinin nəzarəti tərəflərinin olmasıdır. Müvafiq olaraq, ailə problemi tez-tez cinayətə çevrilə bilən cinayətkar və deviant davranışlara səbəb olur. Drozdovun timsalında ailədəki əlverişsiz tərbiyənin bütün növlərini şərti olaraq beş növdə qruplaşdırmaq olar. Təmiz formada, bütün beş növə nadir hallarda rast gəlmək olar, daha tez-tez müxtəlif birləşmələrdə birləşirlər və buna baxmayaraq amillərdən biri hələ də əsas, qalanları isə ondan irəli gəlir [5].

**Nəticə**

Yetkinlik yaşına çatmayanların hüquqi şüurunun formalaşmasına ailənin müsbət təsir səviyyəsini yüksəltmək məqsədilə aşağıdakı bir sıra dəyişikliklər həyata keçirilməlidir:

1. əhalinin maddi rifah səviyyəsini artırmaq
2. risk qrupu adlanan ailələrlə ciddi profilaktika işi aparılmalı (ailə üzvlərinin alkoqol və ya narkomaniyaya meylli olması, əvvəllər məhkum olunmuş ailə üzvləri)
3. uşaq bağçalarında və məktəblərdə psixoloqların fəal şəkildə fəaliyyət göstərmələri
4. əhalinin mənəvi və hüquqi tərbiyəsi ilə məşğul olacaq müəyyən dövlət strukturu yaradılmalı.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Берсей Д.Д., Сербина И.А. Алкоголизм и насильственная преступность женщин в семьях // Общество и право. 2009. № 5. С. 198-200. 368с.
2. Борбат А.В., Ильяшенко А.Н. Образ жизни семьи и преступность несовершеннолетних // Российский следователь. 2007. № 17. С. 25-30. 297с.
3. Волков К.А. Преступления против несовершеннолетних: вопросы, требующие решения // Вопросы ювенальной юстиции. 2014. № 3. С. 4 -7. 127 с.
4. Волконская Е.К. Бедность в детерминации рецидива насильственных преступлений // Lex russica. 2013. № 10. С. 1124-1133.
5. Дроздов Т.М. Классификация неблагоприятных условий семейного воспитания в формировании личности несовершеннолетнего правонарушителя (по материалам криминологического исследования в г. Краснодаре) // Российский следователь. 2012. № 23. С. 51-52. 275 с.
6. Зейгарник Б.В. Патопсихология: учебное пособие для студентов высших учебных заведений / Б. В. Зейгарник. – 3-е изд., стер. – М.: Издательский центр «Академия», 2005. – 208 с.
7. Иващенко Н.П. Совершенствовать предупредительную деятельность в сфере семьи-микрогруппы как объекта криминологического исследования // Общество и право. 2008. № 3. С. 70-73. 427 с.
8. Ильяшенко А.Н., Шмарион П.В. Криминологическая характеристика

жертв насилия в семье // Российский следователь. 2005. № 5. С. 532с.

9. Кошелева Е.В. Семейное неблагополучие как фактор повторной преступности несовершеннолетних // Российский следователь. 2015. № 14. С. 8-11.

10. Кургузкина Е.Б. Личность преступника: вопросы формирования // Российский следователь. 2008. № 24. С. 41-46. 94 с.

11. Леонтьев А. Н. Деятельность. Сознание. Личность. / А. Н. Леонтьев. – М.: Политиздат. 1977. – 304 с.

12. Миронова Т.Н. Социоюридическая природа понимания категории «семья» // История государства и права. 2007. № 24. С. 89-93.

13. Орлова Ю.Р., Гусева О.Н. Криминологические особенности личности несовершеннолетних женского пола, совершивших корыстно-насильственные преступления // Юридическая психология. 2008. № 4. С. 74-77.

14. Остапенко Н.И. Влияние семьи на личность и поведение несовершеннолетних, совершающих противоправные деяния // Юридический мир. 2009. № 10. С. 40-42.

15. Пахомова Е.В. Социально-демографические и нравственно-психологические обстоятельства в аспекте личностной виктимности // Общество и право. 2011. № 2. С. 175-179.

16. Таланов С.Л. Социологическое измерение проблемы профилактики преступлений несовершеннолетних в Ярославской области // Вопросы ювенальной юстиции. 2011. № 1. С. 3-6.

17. Федотова В.О. Влияние семейного воспитания на формирование правосознания несовершеннолетних нарушителей // Общество и право. 2009. № 2. С. 12-16.

18. Чапурко Т.М., Картавченко В.В. Проблемы определения общественной опасности насилия и жестокости в посягательствах на малолетних и несовершеннолетних // Общество и право. 2008. № 2. С. 22-25.

19. Чубаркин М.М. Семья как фактор, детерминирующий криминальное агрессивное поведение у женщин // Российский следователь. 2006. № 11. С. 83-86.

20. Шестопалова Е.Р. Особенности правового регулирования криминогенной виктимности женщин и профилактика семейного насилия // Административное и муниципальное право. 2012. № 8. С. 86-89.

21. Эминов В.Е., Личность преступника и ее формирование // Актуальные проблемы российского права. 2015. № 1. С. 107-112.

22. Douglas J. Crime Classification Manual: a standard system for investigating and classifying violent crime / J. Douglas, A. Burgess, A. Burgess, R. Ressler – (2nd Ed.). – San Francisco, Calif.: Jossey Bass. –2006. – 555 p.

23. Firestone P. Homicidal and Nonhomicidal Child Molesters: Psychological, Phallometric, and Criminal Features / P. Firestone, J. Bradford, D. Greenberg, M. Larose, S. Curry // Sexual Abuse: A Journal of Research and Treament. – 1998. – Vol.10. Is.4. –P. 305-323.

24. Geberth V., Antisocial Personality Disorder, Sexual Sadism, Malignant Narcissism, and Serial Murder / V. Geberth, R. Turco // Journal of Forensic Sciences. – 1997. – Vol. 42 (1). –P. 49-60.

25. MacDonald D. Inmates Committed for Sex Homicides / D. MacDonald, L.

Morgenbesser. – New York State DOCS (Department of Correctional Services). Unpublished study. – 1984.
26. Salfati G. Serial Homicide: An Investigation of Behavioural Consistency /G. Salfati, A. Bateman // Journal of Investigative Psychology and Offender Profiling. – 2005. – № 2. – P. 121-144.

**Наргиз Джавид гызы БАБАЕВА**
*Западно-Каспийский Университет, магистрант*
E-mail: nargiz.javid.b@gmail.com

## РОЛЬ СОЦИАЛЬНОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ПРЕСПНИКА

**Резюме:** В статье рассматривается сущность криминологического понятия личности преступника, теоретические проблемы, возникающие при определении его структуры. Выявлены и проанализированы внешние факторы, влияющие на формирование личности преступника: негативные семейные обстоятельства, пробелы в школьном образовании, отсутствие социального контроля, недостаток общения и досуга.
**Ключевые слова:** человек, личность, преступник, характеристики личности преступника, социальная среда, социализация.

**Nargiz Javid BABAYEVA**
*Western Caspian University, master*
E-mail: nargiz.javid.b@gmail.com

## THE ROLE OF THE SOCIAL ENVIRONMENT IN THE FORMATION OF A CRIMINAL PERSONALITY

**Summary:** The article deals with the essence of the criminological concept of the offender's personality, the theoretical problems that arise when determining its structure. External factors that influence the formation of the offender's personality are identified and analyzed: negative family circumstances, gaps in school education, lack of social control, lack of communication and leisure.
**Key words:** person, personality, criminal, personal characteristics of the criminal, social environment, socialization.

**Daxil olub:** 11.03.2021